# AVROPADA MUSİQİLİ KOMEDİYA JANRLARININ YARANMA TARİXİNƏ BİR NƏZƏR

**Nazlı Mustafayeva**
Ü.Hacıbəyli adına BMA-nın elmi işçisi, doktorant
**E-mail:** nazli.14@icloud.com



Peşəkar musiqi incəsənətində komediya janrlarının yaranması müəyyən tarixi-mədəni zəmin əsasında baş vermişdir. Belə ki, bəstəkar yaradıcılığında komediya janrlarının təşəkkülünə qədər, XVI-XVII əsrlərdə komizm, gülüş, satira, ironiya Avropada xalq və peşəkar teatrlarının ideya və estetik məzmununu təşkil edirdi. Avropa ölkələrində Maska teatrı, Trubadur, İmprovizə teatrı, Pantomim, Teatr del-arte, Yarmarka teatrı, Bulvar teatrı, Komik intermediya, Vodevil kimi teatr növləri daha çox komik, yumoristik, satirik mövzulara meylli idilər. Cəmiyyətin müxtəlif təbəqələrinin nöqsanları, mənfilik və mənəvi eybəcərliklər bu musiqili teatrların fəaliyyətində yalnız komizm, komik süjetlər və obrazlarla, yumoristik və satirik vasitələrlə açılır, tənqid hədəfinə çevrilirdi. "XVI-XVII əsrlərdə komizm, satira, ironiya musiqili müşayiətlə oynanılan kütləvi teatr növlərində və xalq dram tamaşalarında qərarlaşaraq bütün Avropa ölkələrində yayılmışdı. Nəticədə, ayrı-ayrı təbəqələrin sosial və əyləncə maraqlarını təmin etməyə başladı. Komizm opera sənətinə, teatra, dramaturgiyaya və poeziyaya daxil oldu. Ciddi opera mövzuları ilə yanaşı, bəstəkarlar komik musiqili teatr nümunələri yaratmağa başladılar. XVIII əsrdən etibarən, Avropa bəstəkarlarının musiqili səhnə yaradıcılığında komik mövzular təcəssüm tapdı. Komik mövzularda yazılan operalar tarixi, qəhrəmanlıq, faciə mövzulu ciddi operalara sanki parodiya kimi meydana gəldi". [3, 211 ].

Məlum olduğu kimi, musiqi incəsənətində hər bir janrın özünəməxsus tarixi yaranışı, təkamülü və inkişaf yolu vardır. Ayrı-ayrı janrın öz inkişaf mərhələlərində və təkamül pillələrində yeni üslub, forma və dramaturgiya xüsusiyyətlərinə, eləcə də yeni bədii-estetik meyarlara malik olması musiqişünaslıq tərəfindən təsdiqini tapmışdır. Eyni zamanda, musiqi janrlarının daşıdığı adlara da tədqiqatçılar tərəfindən maraq göstərilir. Çünki janrların adları bəzən onların quruluşu, əsas əlaməti, məqsədi haqqında məlumat verir. Daha bir cəhət isə bundan ibarətdir ki, tarixi və nəzəri musiqişünaslıq "janr" anlayışını "üslub", "forma", "estetika" kimi anlayışlarla əlaqədə öyrənir. Bu xüsusiyyətlərə görə, musiqişünaslıq tərəfindən "janr" anlayışına həm tarixi, həm nəzəri, həm də musiqi-estetik kateqoriya kimi yanaşılır. Tarixi və nəzəri musiqişünaslıq bu və digər janrın tədqiqində onun həm etimologiyasına, həm təkamül və inkişaf mərhələlərinə, həm də üslub və forma xüsusiyyətlərinə mühüm elmi-nəzəri əhəmiyyət verir.

Musiqi janrlarının ümumi məsələləri ilə bağlı fikirlərimiz musiqili komediya janrlarına da aiddir. Belə ki, ayrı-ayrı dövrlərdə və məkanlarda "komik opera", "vodevil", "zinqşpil", "opera-buff", "tonadilya", "opera-ballada", "operetta", "müzikl" adlı janrlar tarixdə professional musiqili komediya teatrını təmsil etmişlər. Bu janrlar həm də müəyyən məişət, sosial mövzulara malik olub, yeni komik üslub, gülüş tematikası, musiqi dili, forma və ifadə vasitələri daşıyırdılar. Görkəmli musiqi nəzəriyyəçisi L.Mazel janr anlayışını məzmun, ifa və üslub amilləri ilə əlaqələndirərək yazırdı: "Musiqi janrları musiqinin müxtəlif sosial funksiyaları (xüsusən sosial-məişət, sosial-tətbiqi), onun məzmununun müəyyən növləri, həyati məqsədi, ifa və qavranılması şərtləri ilə əlaqədar tarixən əmələ gələn musiqi əsəri növləri və şəkilləridir." [2, 19 ].

Nəzərə alınmalıdır ki, Avropada musiqili teatrın ən geniş yayılmış mürəkkəb forması və janrı opera idi. Operanın yaranması və inkişaf mərhələləri göstərir ki, bu janr öz təkamülündə müxtəlif növlərə, mövzulara, estetik prinsiplərə, forma və üslublara, dinləyici auditoriyasına malikdir. Onlardan biri də "komik opera" idi. XVII əsrin sonları - XVIII əsrin əvvəllərində komizm opera sənətində öz bədii və janr həllini tapmışdı. İlk vaxtlar ciddi operaların və teatr tamaşalarının pərdələri arasında kiçik "intermediya səhnəsi" göstərilirdi. Bu komik intermediyalar - musiqili-dialoqlu komediya səhnəcikləri tədricən müstəqilləşərək forma cəhətdən komik operaların

janrının əsasını qoydular. Komik operaların ilk nümunələrində isə iştirakçılar musiqinin müşayiətilə reçitativ dialoqlar aparır, bəzən də oxuyurdular. Tədricən komik opera mövzu və süjet cəhətdən təkmilləşdi və öz bədii ifadə imkanlarını genişləndirdi.

Mütəxəssislərin fikrincə, XVIII əsrdə Avropa ölkələrində komik operanın milli növləri (opera comiquye, opera-buff, zinqşpil, ballada operası və s.) yaranmışdı və onlar bəzən ciddi ənənəvi operalara (opera-seria) parodiya kimi yazılırdı, buna görə sənət aləmində diskussiyalara səbəb olurdu. [7, 888]

Musiqişünaslıqda musiqili komediya teatrına həm də komik operanın növləri kimi baxılması, bizə gələcək tədqiqatlarımızda "musiqili komediya" anlayışına müxtəlif aspektdən yanaşmağa imkan verir. Onu da qeyd edək ki, XVIII əsrdə bəstəkarlar tərəfindən komik mövzulara və süjetlərə müraciət əsasən cəmiyyətin gülüşə, yumor və satiralı tənqidə olan tələbatından irəli gəlirdi.

"Opera-comique" ("Komik opera") - XVIII əsr opera sənətinin ayrıca bir növü olub Fransada təşəkkül tapmış və inkişaf etmişdi. Hətta janrın inkişafı və populyarlaşması nəticəsində Paris şəhərində 1715-ci ildə Théâtre national de l'Opéra-Comique (Milli Komik Opera Teatrı) yaradılmışdı.

"Komik opera"nın xüsusiyyətlərindən biri də bu idi ki, ciddi və böyük operadan fərqli olaraq, onun obrazlarını sadə insanlar - kəndlilər, qulluqçular, sənətkarlar, tacirlər, kənd musiqiçiləri, kasıb təbəqələr təşkil edirdilər, mövzuları isə sadə məişət həyatından alınırdı. Digər tərəfdən, bu operalarda bəzən xalq mahnı və rəqslərinin melodiyalarından, hamıya məlum küçə musiqiçilərinin mahnı nümunələrindən də istifadə edilirdi. Komik mövzuların və belə obrazların vasitəsilə musiqili teatrda demokratikləşmə, sosial tənqid və satira qərarlaşırdı.

Janrın ilk nümunəsi 1712-ci ilə aiddir. Onun yaranmasına Fransada "yarmarka teatrı"nın (Theâtre de la foire), "del-arte" komediya teatrının (La commedia dell'arte), xalq karnavallarının güclü təsiri olmuşdur. Bu terminlə paralel, bir müddət "vodevil komediyası" termini də işlədilmişdir. [3].

"Komik opera" janrının əsasını komediya yazarı, librettoçu və bəstəkar, yarmarka teatrının və komik teatrın görkəmli nümayəndəsi Alen-Rene Lesaj (1668-1747) qoymuşdur. XVIII əsrin əvvəllərində teatrlar üçün yazdığı komediylardan fərqli olaraq, o, 1712-ci ildən etibarən öz komediyalarına musiqi tərtibatı verir, mahnı və rəqslər daxil etməyə başlayır. Onun "Telemak", "Arkelin - Serendib kralı", "Pandora yeşiyi", "Qara baş", "Tale məbədi" və digər komediyaları janrın ilk nümunələri idi. A.R.Lesaj uzun illər Fransa Komik Opera teatrında işləmişdir. Bu ənənəni yazıçı, librettoçu və bəstəkar Şarl Siman Favar (1710-1792) "Binokl", "Əlcəzair paşası", "Basten və Bastennanın məhəbbəti", "Anetta və Lyuben", "Urgel feyası" və s. komik operaları ilə davam etdirib. Bəstəkar Jan-Jozef Mure (1682-1732) məşhur "Raqonda və Kolenin toyu" komik operası ilə janrı bir qədər də təkmilləşdirdi. Filosof, yazıçı və bəstəkar Jan-Jak Russonun ( 1712-1778) "Kənd sehrbazı" (1752) komik operası da ilk tamaşdan uğur qazanmışdı. Maraqlıdır ki, bu əsərin librettosu əsasında V.A.Mosart "Basten və Bastenna" zinqşpilini yazmışdır.

XVIII əsrdə Fransada "komik opera" bəstəkarlardan Pyer-Aleksandr Monsini ("Nəzakətsiz etiraf", "Aldanmış qazı", "Kral və fermer", "Roza və Kola", "Gözəl Arsena," "Qolkond şahzadəsi Alina"), Andre Qretri ("Quron", Lüsil", "Danışan təsvir", "Üzüm yığan qız", "Silvan", "İki xəsis", "Ailə dostu", "Salansidən seçilmiş", "Qısqanc sevgili", "Kənd sınağı"), Fransua Adre Filidor ("Bağban və onun ağası", "Dəniz ilbizi və məhkəmə çəkişmələri", "Blez-başmaqçı", "Dəmirçi", "Sanço Pansa öz adasında", "Sidonlu bağban", "Maskalanmış aşiq", "Kənd dostluğu", "Xeyirxah oğul", "Gözəl cariyə", "Cadugər", "Tom Cons") yaradıcılığında inkişaf etmişdir.

XVIII əsrdə musiqili komediya Avropa ölkələrində müxtəlif forma və janrlarda parlaq təcəssümünü tapır. Belə ki, XVIII əsrin 30-cu illərində İtaliyada komik operanın bir növü kimi "opera-buff" janrı meydana gəlir və bu janr bütün Avropada populyarlaşır. Musiqi tarixçilərinin yazdığı kimi, İtaliyada opera sənəti XVII-XVIII əsrlərdə öz mövzu, süjet, quruluşu və dramaturgiyası baxımından iki növə bölünürdü: ciddi opera (opera-seria) və komik opera (opera-buffa). Zəngin opera ənənələri olan İtaliyanın musiqi həyatına komediya mövzularının daxil olması bir tərəfdən, məşhur italyan xalq komediya teatrının (komediya del arte, maska teatrı, improvizasiya teatrı) ənənələrindən, digər tərəfdən, operanın yeni və sadə növünə tələbatdan, digər tərəfdən isə komediyanın real həyatı və onun mənfi tərəflərini tənqid edə bilməsindən irəli gəlirdi. [4, 12-37].

Beləliklə, XVII əsrdə İtaliyada geniş yayılmış komik intermediyalar, maska teatrı, meydan saritik tamaşaları, eləcə də Venesiya və Roma şəhərlərinin musiqili komediya tamaşaları XVIII əsrin I yarısında "opera-buff" adlı komik opera janrının yaranmasına təsir göstərdi. XVIII əsrdə "opera-buff" digər Avropa ölkələrinin musiqi komediya teatrlarına nüfuz edə bildi. Hətta janrın geniş miqyas alması XVIII əsrin 50-ci illərində Fransada ənənəvi opera tərəfdarları ilə buff tərəfdarları arasında "buffonların müharibəsi" adlı qarşıdurmaya səbəb oldu və demokratik maarifçilərin, geniş kütlələrin dəstəyi ilə öz həyatına davam edə bildi. İtaliyada ilk "opera-buff" nümunələrinin müəllifləri bəstəkar Covanni Battist Perqolezi ("Qulluqçu-xanım"), Covanni Paiziello ("Dəyirmançı qız", "Kamiletta"), Nikkolo Piççinni ("Xeyirxah qız"), Domeniko Çimaroza ("Parisli rəssam", "Don Kalandrinonun qayıtması", "Komik sevgililər", "Rəqib qadınlar", "İki baron", "Qadın hiylələri", "Əsilsiz parisli qadın", "Qrafın şıltaqlıqları" və s.) hesab olunurdu. Bu bəstəkarların komik operaları Avropa ölkələrində populyarlıq qazanmışdı.

XVIII əsrdə musiqili komediya Almaniya və Avstriyada "zinqşpil", İngiltərədə "opera-ballada", İspaniyada "tonadilya" adı ilə öz janr təcəssümünü tapmağa başladı.

"Musiqi ensiklopediyası"nda göstərilir ki, Singspiel (zinqşpil) - alman dilində iki sözün birləşməsindən yaranmış termindir: "zingen" (oxumaq) və "spiel" (oyun, ifa). [6, 462]. "Zinqşpil" Almaniyada və Avstriyada XVIII əsrin ikinci yarısından etibarən bəstəkarlar tərəfindən ən çox müraciət olunan musiqili komediya idi. Tədqiqatçılar zinqşpil janrının inkişaf edərək, mövzu cəhətdən bir neçə növə malik olduğunu qeyd edirlər. Bu janr artıq cəmiyyətin bütün təbəqələrində maraqla qarşılanırdı. Musiqişünaslar qeyd edir ki, zinqşpillərin librettoları kənd həyatından, məişət və məhəbbət mövzularından, nağıl mövzularından, kübar adamların

nəcib əməllərindən bəhs edirdi, lakin bu tamaşalarda mövzu və süjet mütləq komizm üslubuna tabe idi. "Avstriya (Vyana) zinqşpili xalq komediyasının, İtaliya "del arte" teatrının (maska teatrının), nisbətən də Fransa komik operasının təsirində qurulmuşdu. Belə geniş musiqi əlaqələri bununla şərtlənirdi ki, müxtəlif xalqların musiqi incəsənəti elementlərinin birləşdiyi Vyana bir növ beynəlxalq mərkəz idi". [6, 462]. Zinqşpillərdə dialoqlar mahnı və rəqslərlə növbələşirdi, instrumental epizodlardan, ansambl və ariyalardan istifadə olunurdu. Mahnı melodiyalarının sadə xalq üslubunda olması onları tez populyaşdırırdı.

Almaniya və Avstriyada ilk "zinqşpil" nümunələrini İohann Ştandfus ("İblis azadlıqda", "Şən çəkməçi", "Qürurlu kəndli Yohen Tröbs"), İohann Adam Hiller ("Muza", "Sünbüllü çələng", "Lizuar və Dorilett", "Ov", "Kənd bərbəri", "Müharibə", "Şən toy"), Yirji Antonin Benda ("Kənd yarmarkası", "Romeo və Yuliya", "Meşə", "Odunçu və ya üç arzu", "Tatar qanunu"), Kritian Qotlob Nefe ("Aptek", "Etiraz", "Amurun qutusu"), İqnats Yakob Holtsbauer ("Qunter fon Şvartsburq", "Çinlilər", "Ariadnanın toyu"), İqnats Karl Umlauf ("Mədən fəhlələri", "Məhəbbət adası", "Xoşbəxt ovçular", "Məhəbbət üzüyü və ya Zemira və Azor"), Avqust Karl Dittersford ("Qırmızı papaq", "Doktor və aptekçi"), İohann Fridrix Reyhardt ("Lila", "Ervin və Elmira", "Klaudina de Villa Bella", İeri və Beteli") yazıblar. Dahi Avstriya bəstəkarı V.A.Mosartın yaradıcılığında yer alan "Basten və Bastenna" (1768), "Zaide" (1780), "Saraydan qaçırılma" (1782), "Fiqaronun toyu" (1786), "Don Juan" (1787), "Sehirli fleyta" (1791) kimi məşhur komik operalar zinqşpil janrını yüksək klassik səviyyəyə çatdırmışdı. Zinqşpil XIX əsrdə Almaniyada və Avstriyada operetta janrı ilə əvəz olundu.

"Ballad opera" ("Ballada operası") - XVIII əsrin I yarısında İngiltərədə yaranmış və inkişaf etmiş komik opera janrı idi. Musiqi və dialoqların növbələşməsi ilə ifa olunan sadə komediya tamaşalarında musiqi materialı kimi ingilis xalq balladalarından istifadədən sonra bu musiqili komediyalar "ballad opera" adını daşımağa başladı. İngiltərədə komik operanın bu növü "İtaliyada, Fransada, Almaniyada, İspaniyada yayılmışdı... Daha çox artistokrat həyatına gülən və arabir saray "böyük operasına" (opera-seria) parodiya kimi yaranan satirik məzmunda komediya idi". [5, 310]

Şair Allan Remsinin 1725-ci ildə "Alicənab çoban" komediyası musiqili müşayiətlə tamaşaya qoyulsa da, ballada operasının tarixi 1727-ci ildə bəstəkar İohann Kristof Pepuş tərəfindən yazılan və 1728-ci ildə Londonda göstərilən "Kasıbların operası" ("The Beggar's Opera") əsəri ilə başlanır. Komik əsər İngiltərədə ciddi operaya parodiya kimi yazılıb. Bəstəkar İohann Kristof Pepuş "Polli", Kurt Veyl "Üç qəpiklik opera", Çarlz Koffi "Kasıbın toyu", "Sautvark yarmarkası", "İblis ödəyir və ya Metamorfozun arvadı", "Pansione və ya saxta kapitan", "Şən Kobler", "İblis azadlıqda", Kolli Cibber "Ər", "Qadınlar", "Rəqib Fuls", Riçard Şeridan "Rəqiblər", "Qeybətçilər məktəbi", "Duenya", "Tənqidçi", Tomas Arne "Kənddə məhəbbət" əsəri ilə, həmçinin Henri Fildinq, Çarlz Dibdin və başqaları ballada operasını inkişafında mühüm rol oyanırlar.

"Tonadilla" ("Tonadilya") - XVIII əsrdə İspaniyada geniş yayılmış musiqili komediya janrı idi. İ.Martınov "tonadilla" mahnılarının xalq musiqisində və eyni adlı komediya janrının yaranmasıda rolundan ətraflı bəhs etmişdir [8, 75-80]. "Tonadilla" ispan dilindən tərcümədə "tonada" (mahnı) sözündən olub, "kiçik mahnı" mənasını verir. Janrın belə adlandırılması təsadüfi deyildi. Çünki bu janrın mənşəyini və materialını xalq arasında sevilən və folklor mənşəli satirik mahnılar təşkil edirdi. İspaniyada yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar, belə mahnılar vasitəsilə satirik və tənqidi mövzu musiqili tamaşalara daxil olur. Tonadalar operaların antraktlarında, komik operalarda və tamaşalar arasında xüsusilə saray həyatını və yad ənənələri tənqidlə oxunurdu.

Janrın ilk yaradıcısı bəstəkar Luis Mison (1727-1776) hesab edilir. O, 1757-ci ildə yazdığı "Una mesonera y un arriero" ("Çay Qız və Ovçu") əsəri ilə janrın əsasını qoymuşdur. Tonadilya janrında M.Ferreyra P.Esteve, B.de Laserna A.Gerrero, A.Rosales və digər bəstəkarlar bir çox nümunələr yazımışlar.

XVII-XVIII əsrlərdə Avropada musiqili komediya teatrının inkişafı XIX əsrdə operetta janrının yaranmasına zəmin yaratdı. XIX əsr romantizm dövründə Fransa bəstəkarı Jak Offenbax tərəfindən yeni musiqili komediya janrının - operettanın əsası qoyulur.

"Operetta" - italyan dilindən tərcümədə "kiçik opera" mənasını daşıyır. Operettanın meydana gəldiyi ilk vaxtlarda ona komik səhnələrin salınması müəyyən səbəblərlə bağlı idi. Birincisi, operettaya qədər komik mövzular xüsusən opera-komedi, opera-buff, zinqşpil, opera-ballada kimi musiqili səhnə janrlarında təqdim olunurdu. Yəni operettanın yaranması üçün Avropa musiqisində artıq teatr təcrübəsi, bədii zəmin vardı. İkincisi, operettanın yaranması ciddi mövzularda yazılan və daha çox dramatik, faciəvi, tarixi səciyyə daşıyan operalarla yanaşı, komik və kiçik həcmli operalara bədii-estetik tələbatdan irəli gəlirdi. Üçüncüsü, Avropa romantizmində maarifçilik, demokratiya, xalq və insan taleyi kimi ideyalar geniş vüsət almışdı. Bu proseslər fonunda musiqili teatrda yumora, məzhəkə elementlərinə, təlxək obrazına, gülüşə, satiraya və ironiyaya yol verilməsi cəmiyyətin sosial və estetik tələblərinə cavab verir, tamaşaçılar tərəfindən dəstəklənirdi. Məhz bu amillər, "operetta" (kiçik opera) janrının yaranmasına səbəb oldu. Nəticədə bu janrın üslubu və estetikası məhz komizm üzərində formalaşdı.

Musiqi tarixində operetta janrının banisi Fransa bəstəkarı və dirijoru Jak Offenbax (1819-1880) sayılır. Onun yaşadığı dövrdə Fransada komediya teatrına maraq böyük idi. Bunun nəticəsidir ki, Fransada "Comedie-Française", "Opera-Comique" teatrları fəaliyyət göstərirdi. J.Offenbax bu teatrlarda dirijor və violençel ifaçısı kimi işləmişdi.

Bəstəkar 1855-ci ildə öz teatrını yaradaraq, onu "Bouffes-Parisiens" (Théâtre des Bouffes-Parisiens) adlandırdı. Teatrın adındakı "buff" sözü bəstəkarın komediya, buffonada janrında musiqili teatr nümunələri yaratmaq məqsədindən irəli gəlirdi. J.Offenbaxın operetta yaradıcılığının müəyyən hissəsi bu teatrla bağlı olmuş, ilk və bir sıra yeni operettalarını həmin sənət məbədində səhnələşdirmişdi.

J.Offenbax 1847-ci ildə "Alkov", "Blanş", "Hersoqinya Alba", 1853-cü ildə "Pepito", 1854-cü ildə "Lyüs və Lyüsetta" komik operalarını yazmışdır. Lakin musiqi tarixçiləri "operetta" janrının başlanğıcını nədənsə 1855-ci ildən hesablayırlar. Çünki K.Offenbax həmin il "İki nəfər kor", "Kənd skripkaçıları", "Dekameron" operettalarını

bəstələyib. Bizim fikrimizcə, müəllif 1855-ci ilə qədər yazdığı əsərlərini "komik opera" adlandırsa da, bunlar janr etibarilə, mahiyyətcə, belə operettalar deyildilər. J.Offenbaxın yaradıcılığına istinad etmiş olsaq, məntiqlə janrın tarixi 1847-ci ildən hesblanmalıdır.

Tədqiqatçıların fikrincə, J.Offenbax 100-ə qədər operetta yazmışdır: "Bataklan", "Ağ geçə", "Poçtalyon-girov", "Orfey cəhənnəmdə", "Dayə", "Krokofer", "Gözəl Yelena", "Arlekin-bərbər", "Perinetta", "Çəkməçi və maliyyəçi", "Xanım çəpənək", "Pyero-kloun", "Vatto çobanları", "İki balıqçı", "Dafnis və Xloya", "Komik roman", "Çobanlar", "Janna ağlayır, Janna gülür", "Aptekçi və parikmaxer", "Aşiq müğənni", "Oxumaq dərsi", "Sehirli tütək", "Paris həyatı", "Robinzon Kruzo", "Doktor Oks", "Madumauzel Muşeron", "Madam Favar", "Tambur-majorun qızı", "Gözəl Lyüretta"...

Maraqlıdır ki, J.Offenbax bəzi operettalarını janr əlamətinə görə, "opera-komik", "opera-buff", "fantastik operetta", bəzilərini "opertta-buff", "opera-buffon", "opera-biff feeriya" kimi təqdim etmişdir. Lakin bu operettaların hamısı komik musiqili teatr nümunələri idi - Avropada populyarlıq qazanmış, müəllifinə böyük şöhrət gətirmişdilər. Bəstəkar dövrünün populyar xalq rəqslərindən, fransız şəhər folklorundan, Paris şansonlarından, xor, ansambl vasitələrindən geniş istifadə edirdi. Onun operettalarında şəhər və kənd həyatında baş verən məzəli hadisələrdən, burjua təbəqəsinin məişətindən, münasibətlərindən və şıltaqlıqlarından, mənəvi mövzulardan, fərqli sosial təbəqələrin münasibətindən, hətta mifologiyadan bəhs olunurdu. İ.Sollertinski yazırdı: "Offenbax - nə qədər gurultulu səslənsə də - XIX əsrdə ən istedadlı bəstəkarlardan biri idi. Lakin Şuman, yaxud Mendelsondan, Vaqner, ya da Bramsdan fərqli olaraq, başqa janrda işləyirdi. O, parlaq musiqi felyetonçusu, buff-satirik, improvizator idi..." [9, 351 ].

Operetta janrında XIX-XX əslərdə, Avropada, Rusiyada, Asiya ölkələrində, sovet respublikalarında, eləcə də Azərbaycanda xeyli sayda əsərlər yazılmışdır. Musiqili komediyanın çox inkişaf etmiş və müasir janrı olan operettaya XIX əsrdə Leo Delib, Florimon Erve, Şarl Lekok, Robert Planket (Fransa), İohann Ştraus (oğul), Frans fon Zuppe, Rixard Jene, Karl Milleker, Yozef Helmesberger (Avstriya), Karl Tseller (Almaniya), Rucero Leonkavvalo (İtaliya), XX əsrdə Andre Massaje, Lak İber (Fransa), Oskar Ştraus, Frans Leqar, Edmund Eysler (Avstriya), Leon Essel, Eduard Kyünneke, Robert Ştols (Almaniya), Oskar Nedbal (Çexiya), İmre Kalman (Macar, ABŞ), bir çox rus sovet bəstəkarları - İ.Dunayevski, V.Solovyev-Sedoy, B.Aleksandrov, M.Blanter, K.Listov, Y.Milyutin, O.Feltsman, A.Novikov, Azərbaycan bəstəkarları - Ü.Hacıbəyli, F.Əmriov, S.Rüstəmov, R.Hacıyev, S.Ələsgərov, V.Adıgözəlov, T.Bakıxanov və başqaları müraciət etmişlər. ❖

**Ədəbiyyat:**

1. Həsənova Ş. Musiqi tarixindən mühazirələr. Dərs vəsaiti. 1-ci hissə. - Bakı, 2008. - 93 s.
2. Mazel L.A. Musiqi əsərlərinin quruluşu. Dərs vəsaiti. /Rus dilindən tərcümə edən G.Q.Hüseynova. - Bakı, "Maarif", 1988. - 516 s.
3. Брянцева В.Н. Французская комическая опера XVIII века. Пути становления и развития жанра. М.: "Музыка", 1985. - 311 с.
4. Крунтяева Т. Итальянская комическая опера XVIII века. - Л.: "Музыка", 1981. - 168 с.
5. Левик Б.В. Балладная опера // Музыкальная энциклопедия. В 6-ти томах. Т.1. - М., "Советская энциклопедия", 1973. - С. 310.
6. Левик Б.В. Зингшпиль //Музыкальная энциклопедия. В 6-ти томах. Т. 2. - М., "Советская энциклопедия", 1974. - С.462-463.
7. Ливанова Т.Н. Комическая опера // Музыкальная энциклопедия. В 6-ти томах. Т. 2. - М., "Советская энциклопедия", 1974. - С.888-889.
8. Мартынов И. Музыка Испании. Монография. - М., "Советский композитор", 1977. - 336 с.
9. Соллертинский И. И. Заметки о комической опере // Исторические этюды. - Л.: Гос. муз. изд., 1962. - С. 347-357.

**РЕЗЮМЕ**

Назлы Мустафаева

К ИСТОРИИ СОЗДАНИЯ МУЗЫКАЛЬНО-КОМЕДИЙНЫХ ЖАНРОВ В ЕВРОПЕ

Предметом статьи являются вопросы становления и развития музыкально-комедийных жанров в творчестве европейских композиторов XVII-XIX веков. Актуальность работы обусловлена современными музыковедческими задачами в области исследования исторических проблем музыкальной комедии, которые неразрывно связаны с развитием музыкально-театрального искусства. Автором исследуется история создания и развития музыкально-комедийных жанров, таких как французская "комик-опера", итальянская "опера-буфф", немецкая и австрийская "зингшпиль", английская "баллад-опера", испанская "тонадилья".

В аспекте изучаемого вопроса также рассматривается появление нового музыкального комедийного жанра «оперетты», впервые созданного французским композитором Ж. Оффенбахом в середине XIX века. По мнению автора, появление жанра оперетты является результатом развития театра музыкальной комедии в профессиональном музыкальном искусстве.

**Ключевые слова:** XVIII век, композиторское творчество, музыкально-комедийные жанры, комическая опера, опера-буфф, баллада-опера, тонадилья, оперетта

**Summary**

Nazli Mustafayeva

ON THE HISTORY OF MUSICAL COMEDY GENRES IN EUROPE

The subject of the article is the issues of origin and development of musical comedy genres in the creative of European composers of the 18th century. The relevance of the article is due to modern musicological tasks in the field of researching the historical problems of musical comedy, which are inextricably linked with the development of musical theater artists. The author explores the history of the origin and development of musical comedy genres, such as the French "opera comique", Italian "opera-buffa", German and Austrian "singspiel", English "ballad opera", Spanish "tonadilla".

The aspect of the issue under study is also considered the emergence of a new musical comedy genre "operetta", first created by French composer J. Offenbach in the mid-19th century. According to the author, the emergence of the operetta genre is the result of the development of the musical comedy theater in professional musical art.

**Key words:** XVIII century, composer's creative, musical comedy genres, opera comique, opera-buffa, ballad opera, tonadilla, operetta